**AQTA ilə əməkdaşlıq fəaliyyətləri**

- 2025-ci il 25-29 may tarixlərində Paris şəhərində ÜHST-nin Baş direktoru qurumun 92-ci Baş Sessiyasında iştirak edən AQTA nümayəndə heyəti ilə görüşüb. ÜHST-nin mənzil-qərargahında keçirilən görüşdə ölkəmizdə heyvan sağlamlığı sahəsində görülən tədbirlər haqqında məlumat verilib, Azərbaycanda heyvan sağlamlığı və rifahı üçün həyata keçirilən tədbirlərdən danışılıb.
- 2024-cü il 11 dekabr tarixində Azərbaycan Respublikası ÜHST-nin İdarəetməyə Nəzarət Komitəsinin üzvü seçilib. Komitədə Azərbaycan, Çin, Avstraliya, Avstriya, Norveç, İrlandiya, Kanada, Çili də daxil olmaqla, ümumilikdə, 16 dövlət təmsil olunur. ÜHST-nin 91-ci Ali Baş Sessiyasında yaradılan komitənin məqsədi sözügedən təşkilatın normativ sənədlərinin yenilənməsi, maliyyə idarəçiliyi və dünyada sahə üzrə prioritet məsələlərin tənzimlənməsi vəziyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsindən ibarətdir.
- 2024-cü il 12 iyunda AQTA nümayəndə heyəti Vyanada ÜHST-in “Vahid Sağlamlıq” mövzusunda seminarında iştirak edir. Tədbirdə zoonoz xəstəliklərlə mübarizə, antibiotiklərə nəzarət, quduzluğa qarşı peyvəndləmə və səyyar laboratoriyalar kimi təcrübələr təqdim olunub. Azərbaycanın əldə etdiyi uğurlar və regional təşəbbüslərdə rolu yüksək qiymətləndirilib. ÜHST rəhbərliyi ilə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.
- 2024-cü il 26 may tarixində Fransanın paytaxtı Paris şəhərində keçirilmiş ÜHST-nin 91-ci Ali Baş Sessiyasında AQTA nümayəndə heyəti ilə təmsil olunmuşdur. Beş gün davam edən sessiyada 183 üzv ölkənin və beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.
- 2023-cü il 18-20 oktyabr tarixlərində Bakıda AQTA ilə ÜHST-nin birgə təşkilatçılığı ilə təşkil olunmuş ÜHST-nin Kommunikasiya üzrə Milli Əlaqələndiriciləri üçün Regional Seminarı keçirilmişdir.. Seminarda AQTA, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ÜHST və Aİ-nin məsul şəxsləri və əməkdaşları iştirak etmişdir.
- 2022-ci il 6 oktyabr AQTA nümayəndə heyəti İtaliyada ÜHST-nin baş direktoru Monik Elua ilə görüşüb. Görüşdə heyvan sağlamlığı sahəsində əməkdaşlıq, beynəlxalq standartlar, xırdabuynuzlu heyvanların taunu və dabaq xəstəliyindən azad zonalar müzakirə olunub.
- 2022-ci ilin 13 may tarixində AQTA sədri Qoşqar Təhməzli ölkəmizdə səfərdə olan ÜHST-nin Baytarlıq Xidmətlərinin Fəaliyyəti (PVS) üzrə Ekspert Qrupu ilə görüşüb. Agentliyin fəaliyyət istiqamətləri, qarşıya qoyulan hədəflər, müvafiq sahədə həyata keçirilən dövlət tənzimləməsi və nəzarəti haqda ətraflı məlumat verilib.